**Əlavə aktivlər qismində ipoteka istiqrazlarının örtüyünün tərkibinə daxil edilə bilən qiymətli kağızları buraxan dövlətlərin müəyyən edilməsi meyarlarının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1285-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 567 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Ən azı "BBB –" ("Standard&Poor's" və "Fitch" reytinq agentliklərinin klassifikasiyasına görə), "Baa3" ("Moody's" reytinq agentliyinin klassifikasiyasına görə) uzunmüddətli kredit reytinqi dərəcəsinə malik İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) dövlətləri, habelə İƏİT üzvləri olmayan və ən azı "AA –" ("Standard&Poor's" və "Fitch" reytinq agentliklərinin klassifikasiyasına görə), "Aa3" ("Moody's" reytinq agentliyinin klassifikasiyasına görə) uzunmüddətli kredit reytinqi dərəcəsinə malik olan dövlətlərin və onların mərkəzi banklarının buraxdığı qiymətli kağızlar əlavə aktivlər qismində ipoteka istiqrazlarının örtüyünün tərkibinə daxil edilə bilər.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 25 yanvar 2017-ci il
14